# “Kim bir məkana çatıb, orada dayanıb qalarsa, ardınca “Yaratdıqlarının şərindən Allahın kamil kəlmələrinə sığınıram” duasını oxuyarsa, ona, həmin yeri tərk edənə qədər heç bir ziyan dəyməz.”

Xəvlə bint Həkim əs-Suləmiyyədən (Allah ondan razı olsun) rəvayət edilir ki, o dedi: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: “Kim bir məkana çatıb, orada dayanıb qalarsa, ardınca “Yaratdıqlarının şərindən Allahın kamil kəlmələrinə sığınıram” duasını oxuyarsa, ona, həmin yeri tərk edənə qədər heç bir ziyan dəyməz.”
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) öz ümmətini, yer üzündə hər hansı bir yerdə müvəqqəti olsa belə məskunlaşarkən qorxduğu bütün təhlükələrdən qorunmaq üçün faydalı vasitələrdən bərk yapışmağa və onlara sarılmağa çağırır, bu istər səfərdə, istər gəzintidə və ya buna bənzər hallarda ola bilir: müsəlman, Allahın bütün eyb və nöqsanlardan uzaq olan kamil kəlamlarının fəzilətinə, bərəkətinə və faydasına görə, bu kəlamlara sarılar, şəri olan hər bir canlının şərrindən bu kəlamlara sığınar və beləliklə də qərarlaşdığı yerdə təhlükədən qorunub əmin-amanlıqda olar.

https://sunnah.global/hadeeth/az/show/5932